


# Güneydən səslər...

"Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## LİDA ƏHMƏDİ



1985-ci ildə Ərdəbildə dünyaya gəlib. İlk və orta məktəbi də burada bitirib. Ali təhsilini Ərdəbil Universitetinin fars ədəbiyyatı fakültəsində alıb. Sonra isə Tehran Əllamə Təbatəbai Universitetinin dilçilik bölümündə magistr dərəcəsi qazanıb. Tehranda müəllim işləyir. Şeirləri həm Güneydə, həm də Quzeydə müxtəlif dərgi və toplularda dərc olunur. Geniş oxucu kütləsi var.

Lida xanım özü haqda deyir: "Uşaqlığımın yaylarını Qaradağın dağ-dərəsində keçirdim. Rəsm çəkməyi şeirdən öncə sevdim. Təbiətdə ağacları, insanların isə gözəllərini çox çəkərdim. İlk okulu bitirdikdən sonra nə oldusa, şeir yazmağa maraq göstərdim...".

### İçimdə məmləkət ağlayır

İçimdə məmləkət ağlayır.
Batı,
Yüksəliş artığıdır yer sayfasında.
Xəritə çizilir dərim üzərində.
Dünya gözlərimdən tökülür.
Sağ-solum itir.
Arxadan sərilən göy barıt qoxuyur.
Günəş durduğundan batır.
Yaşıllığa yanğın köynəyimdən solur torpaq
Hansı mövsümünə küsmüş?
Yer nədən oyanmır?
Ağlayır.
İçimdə məmləkət ağlayır.

## HƏMİDRZA HÜSEYNİ



1988-ci ildə Parsabad (Muğan) şəhərində dünyaya göz açıb. İlk və orta təhsilini burada alıb. Uşaqlıq çağlarından, şeirlə, sənətlə maraqlanıb. Yeniyetməlik çağından şeir yazmağa başlayıb.

### Beçə

Nənəm dedi: Ay bala
Tut beçəni ver bana
Qovdum yazıq beçəni
Dedim, tutaram səni
Qaçdı bağa soxuldu
Göz qırpımı yox oldu
Axtardım onu bağda
Solda idi, nə sağda
Qaqqıldadı qəfildən
Kəsildi səsi birdən!
Bir də gördüm uzaqdan
Tülkü qaçdı alaqdan
Əngində idi beçə
Getdi o heçdən-heçə.

Esmira Fuad